HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 AVQUST 2019-CU İL/ №016 (96)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2



TİFLİS AZƏRBAYCAN TEATRININ DRAMI

3



YAXŞILIQ ET Kİ, YAXŞILIQ GÖRƏSƏN

4



İCTİMAİ URVANIN PANORAMASI

5



ÇARƏSİZLİK SİNDROMU

## TƏHSİL NAZİRİ: "STATUSU OLAN MÜƏLLİMLƏRİN ƏMƏK HAQQI OKTYABRDAN ARTIRILACAQ"



Təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili və baş nazir Mamuka Baxtadze Prezident İqamətgahında müəllimlərlə görüş keçirib və təhsil reforması çərçivəsində müəllimlərin əmək haqqının artacağından danışıblar.

Mixeil Batiaşvilinin sözlərinə görə, statusu olan müəllimlərin əmək haqqı oktyabr ayından artacaq.

"2019-cu ilin oktyabr ayının başlanğıcında statusu və minimum 15 saatı olan bütün müəllimlərin əmək haqqı 150 lari, 15 saatdan az dərsi olan müəllimlərin əmək haqqı isə 100 lari artacaq.

Baş müəllim statusu olanların saat əlavəsi ilə birgə əmək haqqı 1011 lari, aparıcı müəllimin 1435 lari, mentor müəllimin 1745 lari olacaq. Daha çox dərs saatı olanların isə əmək haqqı daha artıq olacaq", - deyə nazir bildirib və qeyd edib ki, müəllimlərin əmək haqqının artması 2022-ci ilə qədər davam edəcək.

"Pedaqoqların əmək haqqının artması tendensiyası hər il davam edəcək və 2022-ci ildə baş müəllimin əmək haqqı 1700 lari, aparıcı müəllimin 2135 lari, mentor müəllimin isə 2445 lari olacaq", - deyə M.Batiaşvili vurğulayıb.

## SALOME ZURABİŞVİLİ 34 MƏHKUMU ƏFV EDİB



Prezident Salome Zurabişvili "Mariamoba" bayramı münasibətilə 34 məhkumu əfv edib. Əfv olunanlardan 8-i qadın, 1-i isə yeniyetmədir.

Prezident Administrasiyası rəhbərinin müavininin vəzifələrini icra edən Angi Xutsişvili mətbuata bildirib ki, Salome Zurabişvili prezident seçildikdən sonra artıq 91 nəfərin əfv olunması ilə bağlı fərmanlar imzalayıb.

"Bu proses davamlı olacaq və ölkə başçısı gələcəkdə də belə fərmanlar imzalayacaq", - deyə A.Xutsişvili bildirib.

## TÜRKİYƏNİN GÜRCÜSTANDAKI SƏFİRLİYİNDƏ ZƏFƏR BAYRAMI İLƏ ƏLAQƏDAR RƏSMİ QƏBUL KEÇİRİLİB

Türkiyənin Zəfər bayramı və Silahlı Qüvvələr günü ilə əlaqədar Türkiyənin Gürcüstandakı səfirliyində rəsmi qəbul təşkil olunub. Qəbulda Gürcüstanın müdafiə naziri Levan İzoria və Gürcüstan Müdafiə Qüvvələrinin başçısı, general-leytenant Vladimer Çaçibaia da iştirak ediblər. Qonaqları Türkiyənin Gürcüstandakı səfiri xanım Fatma Ceren Yazqan qarşılayıb.

Səfir L.İzoriaya və qonaqlara tədbirə qatıldıqlarına görə təşəkkürünü bildirib. Diplomat Türkiyənin Gürcüstanın ərazi bütövlüyü və suverenliyinə qəti dəstəyini ifadə edib.

Tədbirdə çıxış edən Gürcüstanın müdafiə naziri L.İzoria Zəfər bayramı münasibəti ilə səfiri və türk xalqını təbrik edib. O, Gürcüstanın



NATO-ya inteqrasiyasına göstərdiyi dəstəyə görə Türkiyəyə minnətdarlığını bildirib.

Nazir Gürcüstan və Türkiyənin strateji tərəfdaş olduğunu qeyd edərək, iki ölkə arasında hərbi əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edib.

## ÖLKƏDƏ İSTEHSAL OLUNAN BƏZİ QİDA MƏHSULLARINDA TƏHLÜKƏLİ MADDƏ AŞKARLANIB

Gürcüstanda istehsal olunan bəzi qida məhsullarında təhlükəli boyaq maddəsi aşkar olunub. Qadağan olunmuş boyaq maddələrinin aşkar olunduğu tomat sousu və ədviyyatların yerli mağazalarda satıldığı müəyyən olunub.

Araşdırmanı həyata keçirən Gürcüstanın Strateji Araşdırma və İnkişaf Mərkəzi istehlakçıları altı konkret məhsuldan imtina etməyə çağırıb. Belə ki, həmin qida məhsulları insan sağlamlığı üçün təhlükəlidir.

Yoxlama zamanı Gürcüstanın "Marneuli" və "Kula" kimi tanınmış istehsalçılarının qırmızı tkemali məhsulunda "Sudan I" boyaq maddəsi aşkar olunub. Araşdırmanın nəticələri elan olunandan sonra "Marneuli" şirkəti qırmızı tkemalinin istehsalını dayandırdığını bildirib.

Gürcüstanın Milli Qida Agentliyi öz növbəsində aparılan araşdırmanın nəticələrini təsdiq və ya təkzib etmək üçün əlavə labora-



tor yoxlamalar keçirəcəyini bildirib. Qadağan olunmuş sintezləşdirilmiş boyaq maddəsinin müəyyən olunması məqsədilə nümunələr Latviyanın "Biori" laboratoriyasına göndəriləcək.

Qeyd edək ki, "Sudan" qrupuna daxil olan qeyri-qida boyaq maddələri dizel yanacağının istehsalı, parçaların və ya laboratoriyalarda preparatların boyanması üçün istifadə olunur. Bu maddələr ədviyyatların və ya məhsulların saxtalaşdırılması üçün tez-tez tətbiq olunur.



# TİFLİS AZƏRBAYCAN TEATRININ DRAMI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Bilənlər bilir, bilməyənlər üçün tirajlayıram. Bilib biganə qalanlar da oxusalar qiyamət qopmaz, elə oxumasalar da bir zad dəyişməz. Guya oxuyub, xəbərdar olub, avtobuslara dolub Tiflisə teatr tikməyəmi gedəcəklər (Heç tamaşaya baxmağa getmirlər). Uzağı, rəhmətlik Yaşar Nuri kimi "ə, nooolsun" ("Ac həriflər") deyib keçəcəklər növbəti yazıya mız qoymağa.

Bəli, TEATR – Bir millətin mədəniyyətinin hansı səviyyədə və yaxud bir millətin mədəniyyətin hansı səviyyəsində olduğunu göstərən mədəniyyət ocağıdır, elə bir ocaq ki, odunun sönməsi mədəniyyəti tənəzzül soyuğunda dondurub milləti buz dövrünə qaytara bilər. İnsanların soyuqlaşması, buzlaşması da teatrlara, mədəniyyət ocaqlarına gedib o odun istisinə qızınmadıqlarına görədir bəlkə də. Bəlkə də alimlərin proqnoz etdikləri gözlənilən yeni buzlaşma dövrü qacetləşən biganəliyin mədəniyyət ocaqlarını söndürməsi ilə başlayacaq. Bəlkə də buna görə dünyanın mədəni xalqları teatrlara diqqət, qayğı göstərir, inkişaf etdirir, teatrlara gedir, yaşadır.

Sözümün mustafasını qlobal olaraq must! must! demək istəmirəm. Demək istədiyim odur ki, bizim də bir teatrımız var Tiflisin düz ortasında, Kürün sağ sahilində, Narınqalanın ətəyində, erməni kilsəsi ilə qonşu, Qorqasali 1 ünvanında. Çoxumuzun bu teatrın mövcudluğundan xəbəri belə yoxdur. Ona görə də bir daha "Caps Lock"la yazıram: VƏTƏNİMİZ GÜRCÜSTANIN PAYTAXTI TBİLİSİDƏ HEYDƏR ƏLİYEV ADINA TBİLİSİ DÖVLƏT PEŞƏKAR AZƏRBAYCAN DRAM TEATRI FƏALİYYƏT GÖSTƏRİR, özü də lap çoxdan, İlham Rəhimlinin *"Tiflis Azərbaycan Teatrı" kitabının ilk səhifəsində yazıldığı kimi: ""Kavkaz" qəzetinin 1873-cü il 25 mart tarixli sayında yazıldığına görə, Novruz bayramı münasibətilə Tiflisin "Cəmiyyət yığıncağı" zalında azərbaycanlı ziyalılar teatr tamaşası oynamışlar. Oynanan tamaşa Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyasının bir neçə şəkli idi..."* Bəli, bu tarix milli teatrımızın yaranma tarixidir. Burada sizə tarix dərsi keçmək fikrim yoxdur. İstəyənlər kitabı tapıb özləri oxuya bilər. Bu kitabın mövcudluğundan xəbərimizin olmaması da yaxşı məlumdur. Ümumiyyətlə, görəsən bizim nəyinsə mövcudluğundan tam xəbərimiz nə vaxt olacaq?.. Sualı fikirləşməyi sevənlərin ixtiyarına buraxıb mətləbə keçirəm.

Teatrın binasının bərbad vəziyyətdə olması haqqında; binanın restoran, mağaza tərəfindən zəbt olunması, qaçqın ailələrin dolub özlərinə dədə malı edərək yaşamaları haqqında; aktyorların hər növ şəraitsizlikdə pensiyadan az əmək haqqına dözərək çalışmaları haqqında; teatrda işıqçı, rəssam, qrimçi və sair ştatların olmaması, bütün işləri aktyorların özlərinin görməsi haqqında; tamaşaları zal olmadığı üçün başqa teatrların zalında icarə haqqı ödəyərək nümayiş etdirmələri haqqında və daha başqa acınacaqlı zadlar və şeylər haqqında yazmaq istəmirəm, bu haqda yetərincə yazılıb da, danışılıb da. Günahı oxumayanların, eşitməyənlərin, görməyənlərin boynuna.

Hər şeydən xəbərdar olasız deyə bunu da qeyd edim ki, Tiflisdə rus teatrı da fəaliyyət göstərir, erməni teatrı da. Rus teatrının durumu hamısından yaxşıdır, gözəldir. Keçək erməni teatrına. Erməni teatrının vəziyyəti Azərbaycan teatrı ilə müqayisədə qat-qat yaxşıdır. Əvvəla, onu qeyd edim ki, Azərbaycan teatrına dövlət büdcəsindən ayrılan illik vəsait 160 min lari, erməni teatrına dövlət büdcəsindən ayrılan illik vəsait isə 480 min laridir. Yəni erməni teatrına ayrılan pullarla üç bu cür Azərbaycan teatrı saxlamaq olar.

Deməli, erməni teatrının binasının fasadında çatların əmələ gəlməsi ilə teatrın binasını təmir etməyə başladılar. İşlər zamanı binanın beton hissəsi sökülərkən çatların çox olmasına görə binanı yenidən tikmək qərarına gəldilər və 2017-ci ilin avqustunda teatrın tam sökülərək yerində müasir binanın tikintisinə başlanılır. Mətbuatda yayılan məlumatlara görə isə, binanın tikintisi ilə bağlı bütün xərcləri Bidzina İvanişvilinin "Kartu" Fondu öz üzərinə götürüb və 8 milyon laridən çox pul ayrılıb. Çox gözəl addımdır. Fərqi yoxdur, rus, erməni, gürcü teatrı olsun, teatrların tikilməsini, təmir edilməsini alqışlayıram. AMMA!

Azərbaycan teatrına gəldikdə isə niyəsə gözləri yumulur. Niyəsə teatrın varikoz damarlarına oxşayan çatlarını görmürlər, uçub tökülən nərdivanlarını, ikinci mərtəbənin döşəməsinin birinci mərtəbədəki aktyorun başına uçmasını, yayda təndir, qışda soyuducu funksiyasını yerinə yetirən Tiflisin gözlərə girən yerində olan o yekəlikdə binanı görmürlər. NİYƏSƏ!

Elə bilməyin ki, Azərbaycan teatrının durumu ilə bağlı lazımı qurumlara müraciət olunmayıb. Dəfələrlə olunub. Amma reaksiya yoxdur. Gah deyirlər, bina qəzalı vəziyyətdədir, təmir etmək olmaz. Gah deyirlər, yeni bina tikiləcək, amma bunun üçün razılığa gəlmək lazımdır, guya Azərbaycan tərəfi (SOCAR) yeni binanın tikintisinə razı olmayıb, köhnənin təmirinə razı olub, köhnənin təmiri isə kimlərinsə marağında deyil.

Ortalıqda qalan isə tozun, torpağın içərisində çalışan aktyorlardır. O aktyorlar ki, 2004-cü ildən bu günə kimi Tiflis Azərbaycan Teatrının sönməkdə olan ocağını (bəlkə də qəsdən söndürülən) hər çətinliyə dözərək qoruyub saxlamağa çalışırlar, sönməyə qoymurlar. Bəzi ağzıgöyçəklər də kondisionerli kabinetlərdə oturub "işləmək lazımdır" dərsi keçməklə məşğuldurlar. Teatrı olmayanlar mədəniyyəti olmayanlardır. Tiflisdə Azərbaycan dilində danışan teatrın azərbaycanlılara ehtiyacı var. Yeganə mədəniyyət ocağımız olan teatrımızı qorumaq, yaşatmaq, gələcək nəsillərə ötürmək bizim borcumuzdur. Yoxsa gələcək nəsil haqlı olaraq gorumuzu söyəcək.

## NATİA TURNAVA: "SENTYABRDA GÜRCÜSTAN VƏ ABŞ ARASINDA BİRBAŞA AVİAUÇUŞLARLA BAĞLI DANIŞIQLARA BAŞLANILACAQ"



İqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava jurnalistlərə açıqlamasında bildirib ki, sentyabrda Gürcüstan və ABŞ arasında birbaşa aviauçuşlarla bağlı danışıqlara başlanılacaq. Nazir sentyabrın əvvəlində ABŞ-a səfər edəcəyini deyib.

"Səfər çərçivəsində ABŞ-ın iki iri aviaşirkəti ilə birbaşa reyslər barədə danışıqlar aparılacaq. Gürcüstan və ABŞ arasında birbaşa uçuşlar strateji və kommersiya baxımdan cəlbedicidir", - deyə N.Turnava bildirib. O, ABŞ-da aparılacaq danışıqların uğurla başa çatacağına ümidvar olduğunu qeyd edib.

## GÜRCÜSTANDA İŞSİZLİK SƏVİYYƏSİ AZALIB

Milli Statistika Xidmətinin məlumatına görə, 2019-cu ilin ikinci rübündə Gürcüstanda işsizlik səviyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz azalaraq 11,4 faiz təşkil edib.

2019-cu ilin ikinci rübündə iqtisadi baxımdan fəal olan əhali çalışmaq qabiliyyəti olan yaşdakı (15 yaş və yuxarı) şəxslərin 63,7 faizini təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin fəallıq səviyyəsi 0,3 faiz azalıb. İşlə təmin olunma səviyyəsi isə 0,2 faiz artıb. Şəhər və kənd tipli məntəqələrdə işlə təmin olunma səviyyəsi ötən ilin analoji dövrü ilə müqayisədə 0,2 və 0,1 faiz artıb. Fəallıq səviyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə şəhərlərdə 0,2 faiz azalıb, kəndlərdə isə 0,6 faiz artıb.

Belə ki, Statistika Xidmətinin məlumatına görə, 2019-cu ilin ikinci rübündə işlə təmin olunanların ümumi hissəsində işə götürülən şəxslərin sayı 50,2 faiz təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu, 1,1 faiz azalıb.

İşsizlik səviyyəsi kəndlərdə olduqca aşağıdır. 2019-cu ilin ikinci rübündə ötən ilin müvafiq dövrü ilə müqayisədə işsizlik səviyyəsi şəhərlərdə 0,6 faiz, kəndlərdə 0,8 faiz azalıb.

Göstəricilərə əsasən, işsizlik səviyyəsi ənənəvi olaraq qadınlarla müqayisədə kişilər arasında daha yüksəkdir. 2019-cu ilin ikinci rübündə kişilərdə 2,6 faiz qadınların göstəricisindən yüksək olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə işsizlik səviyyəsi qadınlar arasında 0,4 faiz, kişilərdə 1,1 faiz azalıb.

Fəallıq səviyyəsi qadınlarla müqayisədə kişilərdə yüksəkdir. 2019-cu ilin ikinci rübündə qeyd olunan göstərici qadınlarda 55,3 faiz, kişilərdə isə 73,5 faiz təşkil edib. Ötən ilin müvafiq göstəricisi ilə müqayisədə fəallıq səviyyəsi qadınlarda 0,4 faiz və kişilərdə 0,2 faiz azalıb.

2019-cu ilin ikinci rübündə qadınların işlə təmin edilmə səviyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə, demək olar ki, dəyişməz qalır, kişilərdə isə 0,6 faiz artıb.

## GƏLƏN İLDƏN "RYANAIR" ŞİRKƏTİ GÜRCÜSTANDAN 12 İSTİQAMƏTƏ UÇUŞLAR HƏYATA KEÇİRƏCƏK




Kiçik büdcəli "Ryanair" aviaşirkəti gələn ildən Tbilisi və Kutaisi aeroportlarından 12 istiqamətdə uçuşlar həyata keçirəcək. Bu haqda Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava şirkət nümayəndələri ilə birgə açıqlama verib.

N.Turnavanın sözlərinə görə, şirkət bu il 3 istiqamətdə – Tbilisi-Milan, Kutaisi-Boloniya (İtaliya) və Kutaisi-Marsel (Fransa) istiqamətlərində uçuşlar həyata keçirəcək. Gələn ildən isə istiqamətlərdən biri Köln (Almaniya) olacaq.

İlkin mərhələdə "Ryanair" Şota Rustaveli adına Tbilisi Aeroportundan həftədə 4 dəfə Milana uçuşlar həyata keçirəcək. Kutaisinin Davit Ağmaşenebeli adına Aeroprtundan isə Marsel və Boloniyaya həftədə 2 uçuş olacaq.

Son məlumatlara görə, Tbilisi-Milan reysi üçün biletin minimum qiyməti 19.99 avrodan 84 avroya qədər olacaq. "Ryanair"in rəsmi veb-səhifəsində qeyd olunduğuna əsasən, uçuşlar noyabrın 6-dan başlayacaq.

## TÜRKİYƏ PREZİDENTİ RUSİYADA SƏFƏRDƏ OLUB



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiyada birgünlük işgüzar səfərdə olub. Rusiyaya səfər edən nümayəndə heyətinə xarici işlər naziri Mövlud Çavuşoğlu, xəzinə və maliyyə naziri Berat Albayraq, milli müdafiə naziri Hülusi Akar, sənaye və texnoloji naziri Mustafa Vərənk, Prezident Administrasiyasının xarici əlaqələr idarəsinin rəhbəri Fəxrəddin Altun və prezidentin sözçüsü İbrahim Kalın daxildir.

Səfər çərçivəsində Türkiyə və Rusiyanın dövlət başçıları Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin MAKS-2019 beynəlxalq hava nəqliyyatı və fəza sərgisinin açılış mərasiminə qatılıblar.

Həmçinin keçirilən təkbətək və geniş tərkibli görüşlərdə R.T.Ərdoğan və V.Putin iki ölkə arasındakı əlaqələr, Suriya başda olmaqla bir sıra regional və beynəlxalq məsələləri müzakirə ediblər.

## AZƏRBAYCAN, TÜRKİYƏ VƏ GÜRCÜSTAN BİRGƏ HƏRBİ TƏLİM KEÇİRƏCƏK

Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətinin məlumatına əsasən, sentyabrın 2-də Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimi başlayacaq.

Azərbaycan Silahlı Qüvvələrinin Hərb Oyunları Mərkəzində və səhra şəraitində keçiriləcək nəzəri və praktiki hissədən ibarət olan təlimdə üç ölkənin hərbi bölmələri və aidiyyəti dövlət qurumlarının nümayəndələri regional iqtisadi layihələrin mühafizəsinin



təşkili üzrə tapşırıqları icra edəcəklər.

Təlim sentyabrın 6-dək davam edəcək.

## BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU İLƏ NƏ QƏDƏR YÜK VƏ SƏRNİŞİN DAŞINIR?



Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu vasitəsilə hər ay təxminən bir milyon ton yük daşınır.

Bu barədə Trend-ə nəqliyyat bazarındakı mənbə məlumat verib.

Mənbənin sözlərinə görə, daşımaların həcmi ötən illə müqayisədə artıb və ildən-ilə artacaq.

Qeyd edək ki, ötən ilin oktyabr ayında açılan Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu Azərbaycan-Gürcüstan-Türkiyə hökumətləri arasında əldə edilən razılaşma əsasında həyata keçirilib. İlkin mərhələdə illik yükdaşıma 6,5 milyon ton, sərnişin daşıma isə bir milyonadək insan səviyyəsində olacaq.

Bakı-Tbilisi-Qars Azərbaycan vasitəsi ilə Çindən Avropaya malların çatdırılmasının müddətini əhəmiyyətli dərəcədə qısaldır. Bu isə marşrutu xüsusilə cəlbedici edir.

## İRAN MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN DİLİ TƏDRİS OLUNACAQ

Cari tədris ilindən İranın Şərqi Azərbaycan vilayətinin orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisinə başlanılacaq.

2017-ci ildə ikinci dəfə prezident seçilən Həsən Ruhani Təbrizdə yerli əhali ilə keçirdiyi seçkiqabağı görüşündə Şərqi Azərbaycan vilayətindəki məktəblərdə Azərbaycan dilinin tədris olunacağı barədə söz vermişdi. Prezident seçicilərinə verdiyi sözü tutaraq Azərbaycan dilinin tədrisinə icazə verib.

Vilayətin rəhbəri Cəfər Paşai bildirib ki, Təhsil nazirinin əmrinə əsasən, orta mək-




təblərdə şagirdlərə həftədə 2 dəfə Azərbaycan dili tədris olunacaq.

## YAXŞILIQ ET Kİ, YAXŞILIQ GÖRƏSƏN



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

İnsan sosial bir varlıqdır. Bu səbəbdən də insanların bir-birinin köməyinə ehtiyacı var. Bu köməkləşmə və yardımlaşma istər maddi, istərsə də mənəvi yöndən olsun, insana böyük dəstək olur, həyata daha möhkəm sarılaraq yaşamağa imkan verir.

Kömək etmək cəmiyyəti qorumaq və gələcək nəslə daha yaxşı bir həyat bəxş etmək üçün insanların bir-birlərinə etdikləri hər növ maddi və mənəvi dəstəkdir. Bu gün bu anlayış əhatəsini daha da genişlətmiş və bütün insanlığı içinə almışdır. Paylaşmaq – nemətləri, təbiəti, zamanı, enerjini, bütün dünyanı paylaşmaq, yəni insan olmağın ilk şərtidir.

İctimai yardımlaşmanın ən üst səviyyədə olduğu cəmiyyətlər ahəngli, nizamlı, barış içində yaşayarlar. Fərdlər də, cəmiyyət də xoşbəxt olar. İctimai yardımlaşmanın inkişaf etmədiyi cəmiyyətlərdə isə həyat keyfiyyəti, ahəng, hüzur, insan sağlamlığı və bir çox ictimai inkişaflar da aşağı səviyyədə olar.

Dinimiz bizə zəkat verməyin, gözəl söz söyləməyin, könül almağın, yıxılanın əlindən tutmağın, maldan sevgiyə qədər hər şeyin bir sədəqə olduğunu bildirir. Sədəqə də bir kömək növüdür.

İslami nöqteyi-nəzərdən edilən bütün yardımlar Allah üçün edilmiş olsa belə, nəticə etibarilə xeyir məqsədi ilə edilən yardımların nəticəsində alınacaq olan savab yenə o köməyi edən şəxsə dönməkdədir. Çünki bu yardımın qarşılığını Uca Allah əskiksiz bir şəkildə verəcək. Uca Mövlamız bir ayəti-kərimədə "Xeyir olaraq xərclədikləriniz öz yaxşılığınız üçündür. Edəcəyiniz xeyirləri ancaq Allahın razılığını qazanmaq üçün etməlisiniz. Xeyir olaraq verdiyiniz nə varsa qarşılığı sizə tam olaraq verilər və əsla haqsızlığa uğradılmazsınız" (Bəqərə, 2/272) buyurmaqda və digər bir ayəti-kərimədə isə möminləri yardım etməyə, həm də sahib olduqları şeylərin ən keyfiyyətlisini, ən gözəlini verməyə dəvət edərək "Sevdiyiniz şeylərdən infaq etmədikcə yaxşılığa nail ola bilməzsiniz" deyə buyurmaqdadır.

Peyğəmbər əfəndimiz (s.ə.s.) isə bir hədisi-şərifində "Kim bir qulun dünyadakı çətinliyini/sıxıntısını aradan qaldırarsa, Allah da onun axirətdəki çətinliklərini aradan qaldırar. Kim çətində qalmış birini qurtararsa, Allah da onu dünyadakı və axirətdəki çətinliklərdən qurtarar. İnsan insanın köməyində olduğu müddətcə, Allah da o qulun köməyinə çatar" buyurur.

Bəli, əzizlərim, son bir neçə ildir ki, cəmiyyətimizdə güclənməkdə olan yardımlaşma anlayışı məni çox sevindirir. İki il öncə ürək çatışmazlığından əziyyət çəkən Qardabani rayonunun İstisu kənd sakini Knyaz Əliyevə dəstək məqsədi ilə başladılmış olan yardım kampaniyasına Gürcüstanın bir çox bölgəsindən insanlar qoşuldu və lazım olan məbləğdən də çox toplandı. Bu hadisə xalqımızın içində olan yardımsevərlik duyğusunun oyanmasına bir vəsilə oldu.

Bu gün yenə də yardımsevər xalqımız durmadan kəskin limfoblast leykemiya – neyroleykemiya (qan xərçəngi) xəstəliyindən əziyyət çəkən gənc ana Mahmudova Turanəyə, böyrək çatışmazlığından əziyyət çəkən və böyrək köçürülməsinə ehtiyacı olan Samir Durmuşova və təcili olaraq qara ciyər köçürülməsinə ehtiyacı olan İlqar Əmirova əllərindən gəldiyi qədər yardım etməyə çalışırlar.

Nəticə olaraq deyək ki, bu dünyada heç kim heç nədən sığortalanmayıb. Bu gün sən kiməsə kömək edərsən, sabah da bir başqası sənə. Yaxşılıq et ki, yaxşılıq görəsən.

Sağlam bir həyat diləyiylə...



# İCTİMAİ URVANIN PANORAMASI

Düşərgə təsəvvür edin, harada ki, ölkənin müxtəlif bölgələrinin müxtəlif rayonlarının müxtəlif məktəblərindən müxtəlif yaşlı şagirdlər yer alıb. Yazı 10 günlük müşahidənin xülasəsidir. İki həftəlik olduğuna və müşahidənin tam başa çatması qəzetin yayım müddəti ilə tutuşmadığına görə yazının davamı da olacaq. Əgər təsəvvür etdinizsə keçək məsələyə.

Deməli, düşərgədə ölkədə yaşayan müxtəlif etnik qrupların nümayəndələri iştirak edirdi. Bundan dolayı deyə bilərik ki, hər bir məktəbli bölgəsini, rayonunu, məktəbini bir kənara qoyaq, mənsub olduğu xalqı təsmil edirdi, adından əvvəl etnik kimliyi xatırlanırdı. Bundan dolayı müəyyən ictimai məsuliyyət daşıyırdı, istəsə də, istəməsə də öz mənsub olduğu icmanı bütün özəlliyi ilə təmsil edirdi. Demək ki, ictimai davranışında müəyyən məqamları nəzərində saxlamalı idi. Özünə hörmət edən və ya hörmət yiyəsi olmaq istəyən bir xalq mənsubu müəyyən yolla özünü urvaya salıb, çəkiyə mindirməyə borclu idi. Ki, sabah bir almanın “Mən almanam” kəlməsindəki o ictimai qürrədən o da dillənəndə vicdanla hiss edə bilsin.

Bəs biz necə davrandıq. Başlamamışdan qeyd edilməsi vacib bir nəsnə var, düşərgədə icmamızı “təmsil edənlərin” hamısına aid deyil misrasını məcburi qeyd edək ki, sonradan azara düçar olmayaq. Bizim icmada onsuz da istisna-müstəsna mövzusu həmişə aktual olacaq kimi görünür. Söhbət ümumi ictimai mənzərədən, urvamızın yaratdığı panoramadan gedir. Aydın məsələdir ki, 10 litr həcmi olan qutuda 9 litr boz boyanı 1 litr sarı boya ilə qarışdırdıqdan sonra dünyanın bixəbərini də gətirsək boz deyəcək, başbilənini də. Burası belə, keçək icmamızı təmsil etmək üçün məktəblərin idarə heyətinin sayıb-seçib göndərdiyi məktəblilərin 6-7 etnik qrupdan ibarət olan iki həftəlik düşərgənin ilk həftəsindəki ictimai davranışlarına, təmsil etmə məsələsinə.

Başlayaq dialoqlarından, xitablarından , kəlmələrindən ki, feyziyyabınız mübarək olsun. Buyurun: “Ayee, oe, bəri bax, aya”, “Müəllim, mən bir az gic...... şeyəm, odur ki çox fikir verməyin”, “Ə, bunun vidinə-fasonna bax, ay vidinə...”, “Nə gündəsən, ayəə”. Bundan əlavə, istifadəyə başlama tarixi bəlli olmayan əcaib səslər, lağva, söyüş, eybəcər gülüş-qaqqıltı. Bu təmsilin ilk fazası.

Düşərgədə təşkil olunan idman yarışlarında az qala topu kənara atıb bir-birini didmələr, hansısa məktəbli uğrunda özünü bütün düşərgə qarşısında biyabır etmək bahasına başa gələn öcəşmələr, qeyri-formal təhsil sahəsində treninq keçən pedaqoqlarla məzələnmələr, qulaq asmalı məqamda danışmaqlar, danışmalı məqamda ağzına su alıb göz döyməklər, bütün düşərgəni başına götürən hay-küylər, ortaq dilin gürcü dili olduğu halda ortaq auditoriyada yabanı mənzərə yaradan danışmaqlar, rəqs zamanı qıraqda “ağır” kənara çəkilmələr, treninq zamanı şit ortaya düşmələr, ziyanından başqa bir gözlənti verməyən düşük hərəkətlər... Bu sadalananlardan bəziləri başqa etnik qrupu təmsil edən məktəblilərdə, əlbəttə, nəzərə çarpırdı. Amma bunun hamısı bir yerdə yalnız və yalnız icmamızı təmsil etmək üçün məktəblərimizin göndərdiyi təmsilçilərdə müşahidə olunurdu. Xahiş olunur “Biz göndərdik, hərə özünə cavabdehdir” kimi içi boş, sözü gedən etnik qrupların nümayəndələrindən ibarət lagerdə keçməyən söhbətlərə arqument kimi sırımasın oxucu.

Yox idimi göndərmək istədiyin urvalı təmsilçi, ey əziz məktəb heyəti? Göndərməyəydin.

Hamısını boş verin, bizə bu lazım idimi? Əynimizin tüstüsü az idi? Urvamızın görünüşü çoxmu gözəl idi?

Başlamayın ki, haqqı-hüququdur. Hüquqa qalmış, gedin o erkən behlənən həddi-büluğ olmamış şagirdlərin hüquqlarının qeydinə qalın.

İndi oturub nəyi düşünürsən, bu məktəblilər sabah ahıllaşıb cəmiyyətin yetkin üzvü olacaq, 150 nəfər qarşısında yox, milyon qarşısında təmsil edəcək. “Əyri bel ilə əkdiyi də çıxdı əyilmiş,Yəni ki, bu xislət gələcək çağlara qaldı”.

**Həmid SADIX**
**Kalinin ictimai məktəbinin müəllimi**

## RUSTAVİDƏ FƏLAKƏTLƏRƏ HAZIRLIQ VƏ REAKSİYA ÜZRƏ REGIONAL BAZA TİKİLƏCƏK



Rustavi şəhərində fəlakətlərə hazırlıq və reaksiya üzrə regional baza tikiləcək. Bununla bağlı Kvemo Kartli Administrasiyasında əməkdaşlıq memorandumu imzalanıb.

Memorandumu Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətinin Beynəlxalq Federasiyasının vitse-prezidenti Kerem Kınık və Gürcüstan Qırmızı Xaç Cəmiyyətinin prezidenti Natia Loladze imzalayıb.

İmzalama mərasimindən əvvəl Kerem Kınık təşkilatın başqa üzvləri ilə birgə Kvemo Kartli qubernatorunun müavini Kaxa Koberidze, Rustavi meri İrakli Tabağua və yerli hakimiyyətin digər nümayəndələri ilə görüşüb və Rustavidə fəlakətlərə hazırlıq və reaksiya üzrə regional bazanın tikilməsinin əhəmiyyətindən danışıb.

Baza Ağmaşenebeli küçəsi ətrafındakı ərazidə tikiləcək və fövqəladə hallar zamanı region ölkələrinə yardım göstərəcək. Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətinin vitse-prezidenti Rustaviyə səfəri zamanı həmin ərazini də nəzərdən keçirib. Tikinti işləri bir aya başlayacaq.

K.Kınık həmçinin Rustavi bələdiyyəsinin qocalar evini ziyarət edib və benefisiarlara hədiyyələr verib.

## SARTİCALA VƏ MUĞANLIDA MƏKTƏBLƏR TƏMİR EDİLİR



Qardabani rayonunun Sarticala 2 saylı kənd orta məktəbi və Muğanlı kəndindəki Azərbaycan dilli məktəbdə təmir-bərpa işləri həyata keçirilir.

Qardabani rayonunun icra başçısı Ramaz Budağaşvili məktəblərə baş çəkib və təmir işləri ilə yaxından tanış olub.

Hər iki məktəbdə qapı və pəncərələr yeniləri ilə əvəzlənir, yeni dam örtüyü quraşdırılır və sanitar qovşaqları yaradılır.

Sarticala məktəbinin bərpasına 156 897 lari, Muğanlı məktəbinin təmir-bərpa işlərinə isə 289 465 lari vəsait ayrılıb.

Təhsil müəssisələrində yenidənqurma işlərinin yeni tədris ilinin başlamasına qədər başa çatdırılması nəzərdə tutulub.

Qeyd edək ki, Muğanlı kənd məktəbində 500-ə yaxın şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 60-a yaxın müəllim məşğul olur. Məktəb uzun illər təhsilə yararsız vəziyyətdə fəaliyyət göstərib. Üçmərtəbəli təhsil müəssisəsi 40 ildən artıqdır istifadəyə verilsə də, bu günə qədər binada əsaslı təmir işləri aparılmayıb.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN BEŞ KƏNDİNDƏ SU TƏMİNATI LAYİHƏSİNİN İKİNCİ MƏRHƏLƏSİNƏ BAŞLANILIB

Su təminatı üzrə geniş miqyaslı layihənin ikinci mərhələsinin başlanması ilə bağlı Martğopi kəndində məlumat xarakterli görüş keçirilib.

Görüşdə Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili, merin birinci müvini Davit Canturia, Bələdiyyə İnkişaf Fondunun və Dünya Bankının nümayəndələri, tikinti işlərinə nəzarət edən şirkətin xarici ekspertləri iştirak ediblər. Görüşdə layihənin ikinci mərhələsinin gedişatı təfərrüatı ilə müzakirə olunub.

Geniş miqyaslı layihənin ikinci mərhələsi kəndlərdə rezervuarların tikintisini və içməli su sisteminin mərkəzi borusunun montajını nəzərdə tutur.

Layihənin birinci mərhələsinin çərçivəsində təməl tikintilər, sahil bəndləri, nasos sistemi və xlorlaşdırma məntəqəsinin qurulması, eləcə də su rezervuarının tikintisi artıq başa çatıb.

Layihə Bələdiyyə İnkişf Fondu və Qardabani bələdiyyəsinin maliyyəsi ilə həyata keçirilir. Tikinti işlərinin 2020-ci ildə başa çatdırılması planlaşdırılır.

## MARNEULİ MERİYASININ QAYNAR XƏTTİ FƏALİYYƏTƏ BAŞLAYIB

2019-cu ilin 21 avqust tarixindən Marneuli meriyasının məlumat xətti fəaliyyətə başlayıb. Vətəndaşlar iş günlərində saat 09:00-dan 18:00-a kimi (+995) 591 95 95 09 nömrəsinə zəng edərək meriyanın səlahiyyətləri çərçivəsində istədikləri suala cavab ala bilərlər.



# ÇARƏSİZLİK SİNDROMU



Sevdiyim bir yazar var, bir də onun sevgilisi olduğum bir cümləsi: "Həyat yaşlanıb ölməyi gözlədiyimiz bir yerdir". Sual verə bilərsiz, cümləylə sevgilimi olunur? Mən də cavab verərəm ki, gözəl insan, əgər qəlbinlə hiss etsən, bəlkə sən də olacaqsan aşiqi, yarı bu cümlənin. Mən həqiqətin, saflığın sevgilisiyəm, bir gülərkən gözləri qıyılmış uşağın gülümsəməsində hiss edərəm, bir də könlü xarab olmuş bir yazarın altı sözdən ibarət bu cümləsində.

Bəli, əziz oxucu, cəmiyyətimizdə bu gün mövcud olan "çarəsizlik sindromu" haqqında öz fikrimi bölüşmək istəyirəm. "Çarəsizlik sindromu" – hansı ki, bizə həyatı yaşlanıb ölməyi gözlədiyimiz bir yerə gətirən xəstəlik növüdür.

Əgər varoluşa baxsaq görərik ki, kainatda hər bir yaradılışın – istər canlı olsun, istər cansız – bir məqsədi olmalıdır. Məsələn, gəlin insan deyilən bir varlığın əzəli məqsədindən başlayaq. Səncə, əziz oxucu, bir insanın əzəli məqsədi nə ola bilər? İpucu verim, o mənim də ilk məqsədim olub, sənin də, Xristofor Kolumbun da, qonşum Zöhrə nənənin də, ümumiyyətlə, bütün insanlığın, yaradılışdan bu günə qədər. Cavabı tapdınsa nə gözəl, yox, hələ fikirləşirsənsə səni çox yormayım. Bu, bizim dünyada gəlib-keçmiş iki ən saf məqsədlərimizdən biri olub, belə ki, bir zamanlar biz yüz milyonlarla spermatozoid rəqiblərimizin içində özümüzə məqsəd qoymuşduq ki, yumurta hüceyrəyə birinci biz çataq və beləliklə də məqsədə çatmışıq. Necəmi? Çatmışıq ki, sən indi bu xəyalpərəst qızın məqaləsini oxuyursan. Daha sonrakı məqsədlərimiz – işıqlı dünyaya göz açmaq, danışmağa, yeriməyə başlamaq, məktəbə getmək, universitetə qəbul olmaq, hüquqşünas, həkim olmaq, kosmosa uçmaq, dünyanı pis insanlardan xilas etmək və s. Axırda isə gəlmiş-keçmiş ikinci ən saf məqsədimiz olan – ölmək. Təbii ki, burada insan varlığının məqsədlər silsiləsini ümumiləşdirdim. Elə insan var ki, 48 yaşındadır, amma bu dünyada ən böyük məqsədi Mars planetini insanlığın, yaşamağın mövcud olacağı bir hala gətirməkdir – Yer kimi. "Eh bu qız görəsən nə danışır yenə?" fikrinizdən keçə bilər. Amma, əziz oxucu, bu, mənim xəyalımda yaratdığım dünyanı pis insanlardan qurtarıb yaxşılığa doğru dəyişən o qəhrəmanlardan biri deyil, bu insan Kanadalı ixtiraçı, milyarder Elon Maskdır. Təsəvvür edin, milyardların var, bu məbləğlə bir biznesə sərmayə qoyub ömrün boyunca xan balası kimi yaşaya bilərsən. Ancaq Elon Mask nə edir? O, bütün sərvətini Marsı Yer kürəsi halına gətirmək üçün sərf edir. Axmaqlıq deyilmi, əziz oxucu? Amma bəlkə də hələ uşaqlıq arzularına bir uşaqlıq arzusu kimi baxmayan "axmaqlar" dünyanı xilas edəcək. Əgər sən də bu *bəlkə* ehtimalına inanırsansa o zaman sənə ən saf, ən böyük arzum bu olar ki, sən sən ol, bir "axmaq" ol həyatda.

Bir də 16 yaşlı biri var. Günorta vaxtı havanın istisində bir hasarın dibində qəmli-qəmli oturub "sevgi yoxdur, inanmıram, yalandır, abi" nəğməsinə qulaq asar, həyatın necə acımasız olduğunu fikirləşib ürəyində köks ötürər. Bu 16 yaşlı birinin yerinə, fərq etməz, arvad-uşağı olan bir yetkin kişi ola bilər və yaxud 60 yaşında sakitcə oturub gözləri boşluğa dalan bir baba, balaca körpəsi ağlayan 17 yaşında bir qız da ola bilər. Hamımız o nəğmədəki dərdimizi anlatdığımız "abi"mizə sevgi deyilən bir duyğunun olmadığına bütün gücümüzlə inandırmağa çalışırıq.

Bizim cəmiyyətdə 25 yaşında ölüb, 75 yaşında basdırılan insanlar ömür sürür. Təbii ki, hələ də arzulayan, sevən, yaradan azlıq da var.

Bilirsinizmi dərdimiz nədir, daha aydın desək, bu həyatdakı məqsədimiz nədir? – "Bircə qışı yaya birtəhər çıxsaq...", "Yenə pomidorun qiyməti enib, yəqin Ursetə gedən yollar bağlanıb..." və sair.

Ac qalmaqdan qorxuruq biz, ona görə həyatda əsas məqsədimizi pul qazanmaq olaraq görürük. Bilirəm ki, çoxumuzda sual yarana bilər ki, bəs nə etməlidir yazıq camaat. Dolanma çətin, uşaqlar acmı qalsın? Dərd çəkməsin nə etsin bəs?! Amma, əziz oxucu, mən demirəm ki, buna görə kədərlənməyək. Xeyr. Mən onu deyirəm ki, özümüzün də çox yaxşı bildiyimiz kimi, əksəriyyətimizin əsas məqsədi pul qazanmaqdır. Sərvətə o qədər dalmışıq ki, yaşamağı unutmuşuq. Ən acınacaqlı da odur ki, özümüz belə fərqində deyilik bu durumumuzun. Maddiyyata önəm veririk, ac qalmağı dərd edirik, amma mənəviyyatı, sevgini, arzulamağı, yaratmağı çoxdan unutmuşuq.

Yaşamağı unudanlar ən çox kəndlərdədir. Kəndlərdə çarəsiz, sükunətə qərq olub getmiş insanlar var. Qadınlar tarlada, qapı-bacalarında işləyirlər. Kişilər alver edir, məhsulları satıb pul qazanırlar. Sonra bu qazanılmış pulla evləri təmir edirlər, təzə mebellər, təzə paltarlar alırlar və s. Sonra oğula-qıza toy edirlər və beləliklə də ömür gəlib keçir. Bir də baxırsan ki, Əzrayıl başının üzərində gözləyir. Bu zaman bilirsizmi nə olur, bir oyanma olur, bir aydınlanma olur. Həqiqətə oyanırsan, həqiqətə doğulursan. Hər insana bir dəfə verilən yaşamını gözünün qabağına gətirər, ən son həyatı arzu, sevgi və ehtiras içərisində yaşadığını uşaq vaxtı yağışın yaratdığı gölməçənin içində oynadığın vaxt anlayarsan. O qədər xoşbəxt idin ki, palçıqlı gölməçədə hoppanarkən, bu zaman suyun sənin üzərinə sıçramasından həzz alardın və içdən elə gözəl gülərdin ki... Amma daha hər şey sona yetib, peşman olsan nə fayda?.. Mövlana gözəl deyib: "Bu həyat yuxudur, ölüncə oyanılır. Sən ağıllı ol, ölmədən oyan". Nə qədərimiz bacara bilərik ki, ölmədən oynamağı. Bacara bilərikmi?..

21 yaşım var və bu həyatda ən böyük arzum bir səyyah olmaq, dünyanı gəzmək, yeni gözəlliklər kəşf etməkdir. Nə zaman bu xəyalım haqqında fikirləşsəm, çox xoşbəxt olaram. Bir dəfə ata-anama söylədim bu arzumu, onlarsa "Xalqın da qızları var, başı aşağı gedib-gəldilər, universiteti qurtardılar. İndi işləyirlər. Uşaq-uşaq danışma, get universiteti oxu, əlində diplomun olsun, bir yana çıx" dedilər.

Bax, görürsünüzmü, maddiyyata o qədər bağlanmışıq ki, elə bil əbədi yaşayacağıq bu dünyada. Arzularımız, xəyallarımız öldürülür və hamımız sevdiklərimiz tərəfindən çarəsiz insanlar toplusuna çevrilirik. Və yazını sevimli yazarımın bu cümləsiylə bitirmək istəyirəm: "İnsanlıq səssizcə çarəsizlik həyatı sürməkdədir".

***Gülgün MƏMMƏDXANOVA***

# TƏTİLDƏN SONRA ŞAGİRDİ MƏKTƏB RİTMİNƏ NECƏ QAYTARMAQ LAZIMDIR?

**Üç aylıq yay tətilindən sonra şagirdlər məktəb prosesinə adaptasiya olmaqda çətinlik çəkirlər. Şagirdin gündəlik rutinə qayıtmasını yüngülləşdirmək üçün aşağıdakı məsləhətləri nəzərə almalıyıq.**

**Yuxu rejimini qaydaya salın** – Uşağı vəziyyətinə qaytarmaq üçün ilk növbədə yuxu rejimini qaydaya salmalıyıq. Olduqca ağrılı olan bu prosedura yeni tədris ili başlamazdan bir həftə əvvəl başlamaq daha yaxşıdır. Şagirdin erkən oyanmağa uyğunlaşması vacibdir. Əgər uşaq etiraz edirsə, ona məsləhət verin ki, sadəcə çarpayısına uzansın və dincəlsin – belədə bədən daha erkən oyanmağa öyrəşəcək.

**Motivasiya** – Şagirdə motivasiya verməyə və məktəbə getməyin müsbət tərəflərini axtarmağa çalışın. Məsələn, ona deyin ki, sinifdə çoxdan görmədiyi dostları ilə görüşəcək və onlara yay macəralarını danışacaq.



**Şagirdə məktəb üçün hansısa yeni və maraqlı nəsə alın** – Fərqli dəftərxana əşyaları və ya yeni geyim alın. Çalışın alış-verişdə mütləq uşaq özü iştirak etsin və istədiyini seçsin ki, sonra ondan istifadə etmək həvəsi olsun.

**Şagirdə dəstək durun** – Ona danışın ki, uşaqlıqda siz də səhərlər oyanmaqda və məktəbə getməkdə çətinlik çəkibsiniz. Ancaq sizdə hər şey alınıb və bu o deməkdir ki, o da bunu bacara bilər.

**Uşağı dənizdən birbaşa parta arxasına qaytarmayın** – Çalışın istirahətdən tədris prosesi başlamazdan bir həftə əvvəl qayıdasınız. Uşaq məktəbə gedənə qədər aklimatizasiya və adaptasiya prosesini keçməlidir.

**Fikirləşməyi məşq etməkdə ona kömək edin** – Tətildə də məntiq və düşüncəni məşq etdirməyi unutmayın. Ən yaxşı variant masa oyunlarıdır. Bu, balacalar, elə böyüklər üçün də maraqlı olacaq, həmçinin bütün ailə vaxtını xoş keçirəcək.

# 2019-2020-Cİ İLLƏRİN PULSUZ FAKÜLTƏLƏRİNİN SİYAHISI AÇIQLANIB

Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi tərəfindən 2019-2020-ci tədris illərində ali təhsil məüssisələrində proqramlı maliyyələşdirmənin verilməsi qaydası və şərtləri açıqlanıb.

Sərəncamı təhsil nazirinin müavini İrina Abuladze imzalayıb.

Qeyd edək ki, dövlətin tələbənin təhsil haqqını maliyyələşdirəcəyi yerlərin sayını ali təhsil müəssisəsinin özü müəyyən edəcək.

*"Xahiş edirik, ali təhsil müəssisələrinə əsasən yerləşdirilən fakültələr/tədris proqramları ilə tanış olun. Qəbul olunacaq kontingent və tamamilə maliyyələşdiriləcək yerlərin sayı fərqli ola bilər. Təfərrüatlı məlumt almaq üçün müvafiq ali təhsil müəssisəsinə müraciət edin",* - deyə Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzi abituriyentlərə müraciət edir.

**2019-2020-ci tədris ilinin pulsuz fakültələrinin siyahısı:**

**İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti (2 524 500 lari):**
• Gürcü filologiyası
• Tarix
• Arxeologiya
• Fəlsəfə
• Riyaziyyat
• Fizika
• Kimya
• Biologiya
• İqtisadiyyat
• İbtidai sinif müəlliminin inteqrasiya olunmuş hazırlıq tədris proqramı

**Gürcüstan Texniki Universiteti (3 966 750 lari):**
• İnşaat üzrə bakalavr proqramı
• Energetika və elektrik mühəndisliyi üzrə bakalavr proqramı
• Arxitektura üzrə bakalavr proqramı
• Riyaziyyat üzrə bakalavr proqramı
• Mühəndislik fizikası üzrə bakalavr proqramı
• Aqrar texnologiyalar üzrə bakalavr tədris proqramı
• Ərzaq texnologiyaları üzrə bakalavr proqramı
• Meşə işi üzrə bakalavr tədris proqramı
• Aqromühəndislik üzrə bakalavr tədris proqramı
• Heyvandarlıq üzrə bakalavr proqramı
• Aqronomiya üzrə bakalavr proqramı
• Torpaq və su resursları üzrə mühəndislik bakalavr proqramı
• Kimya üzrə bakalavr proqramı
• Mexanika mühəndisliyi və texnologiyası üzrə bakalavr proqramı
• Sənayeçilik mühəndisliyi və texnologiyası üzrə bakalavr proqramı
• Dağ və geomühəndislik üzrə bakalavr proqramı
• Geodeziya mühəndisliyi üzrə bakalavr proqramı
• Geologiya üzrə bakalavr proqramı
• Mühəndislik təhlükəsizliyi və fövqəladə halların idarəsi üzrə bakalavr proqramı
• Geoinformatika üzrə bakalavr proqramı
• İdarə sistemləri, avtomatizasiya və test-mühəndislik üzrə bakalavr proqramı
• Biotibbi mühəndislik üzrə bakalavr proqramı
• Metallurgiya üzrə bakalavr proqramı
• Materialşünaslıq üzrə bakalavr proqramı
• Üzümçülük və enologiya üzrə bakalavr proqramı

**İlia Dövlət Universiteti (900 000 lari):**
• Gürcü filologiyası
• Tarix
• Arxeologiya
• Fəlsəfə
• Riyaziyyat
• Fizika
• Kimya
• Biologiya
• İqtisadiyyat
• İbtidai sinif müəlliminin təhsilinin (I-VI siniflər) inteqrasiya olunmuş bakalavr-magistr proqramı

**Akaki Tsereteli adına Dövlət Universiteti (2 124 000 lari):**
• Gürcü dili və ədəbiyyatı
• Arxeologiya
• Tarix
• Riyaziyyat
• Fizika
• Biologiya
• İqtisadiyyat
• Elektrik mühəndisliyi
• Tikinti
• Aqronomiya
• Aqroxammal qida məhsullarının texnologiyası və ekspertizası
• Aqromühəndislik
• Qida məhsulları texnologiyası və təhlükəsizlik
• Alman dili və ədəbiyyatı
• Fransız dili və ədəbiyyatı
• Şərq fəlsəfəsi
• Kimya
• Ekologiya
• Coğrafiya
• Tətbiqi bioelmlər (biotexnologiyalar)
• Nəqliyyat locistika sistemlərinin təşkili və idarəsi
• Avtomobillər və avtomobil təsərrüfatları
• Keyfiyyətin idarəsi və texniki-iqtisadi ekspertiza
• Tətbiqi dizayn
• Əczaçılıq preparatlarının kimyası və texnologiyası
• Ətraf mühitin mühafizəsi mühəndisliyi və tətbiqi ekologiya
• Müəllim hazırlığının inteqrasiya olunmuş bakalavr-magistr tədris proqramı (başlanğıc təhsil)

**Samtsxe-Cavaxeti Dövlət Universiteti (659 250 lari):**
• Tarix
• Gürcü filologiyası
• İngilis filologiyası
• İqtisadiyyat
• Riyaziyyat
• İnformasiya texnologiyaları
• Aqronomiya
• Ekologiya
• İctimai idarəçilik
• Başlanğıc pillədə müəllim hazırlığının inteqrasiya olunmuş bakalavr-magistr tədris proqramı

**Yakob Qoqebaşvili adına Telavi Dövlət Universiteti (587 250 lari):**
• Tarix
• Gürcü dili və ədəbiyyatı
• Biologiya
• Ərzaq texnologiyası
• Riyaziyyat
• Aqronomiya
• İqtisadiyyat
• Başlanğıc pillədə müəllim hazırlığının inteqrasiya olunmuş bakalavr-magistr tədris proqramı

**Şota Rustaveli adına Batumi Dövlət Universiteti (1 017 000 lari):**
• İqtisadiyyat
• Tikinti
• Aqrar texnologiyalar
• Gürcü filologiyası
• Tarix
• Biologiya
• Kimya
• Fizika
• Riyaziyyat
• Müəllim hazırlığının inteqrasiya olunmuş bakalavr-magistr tədris proqramı
• Ümumi təhsilin başlanğıc pilləsində müəllim hazırlığının inteqrasiya olunmuş bakalavr-magistr tədris proqramı

**Soxumi Dövlət Universiteti (562 500 lari):**
• Riyaziyyat
• Kimya
• Biologiya
• Fizika
• Gürcü filologiyası
• Arxeologiya
• Tarix
• Abxaz filologiyası
• İqtisadiyyat
• Başlanğıc pillədə müəllim hazırlığının inteqrasiya olunmuş bakalavr-magistr tədris proqramı

**Şota Mesxia adına Zuqdidi Dövlət Tədris Universiteti (247 500 lari):**
• Tarix
• Gürcü filologiyası
• İngilis filologiyası
• İctimai idarəçilik

**Qori Dövlət Tədris Universiteti (135 000 lari):**
• Gürcü filologiyasının bakalavr proqramı
• İngilis filologiyasının bakalavr proqramı
• Tarix üzrə bakalavr proqramı
• Biologiya üzrə bakalavr proqramı
• Riyaziyyat üzrə bakalavr proqramı
• İqtisadiyyat üzrə bakalavr proqramı
• İctimai idarəçilik üzrə bakalavr proqramı
• İnformasiya texnologiyaları
• Ümumi təhsilin başlanğıc pilləsində müəllim hazırlığının inteqrasiya olunmuş bakalavr-magistr tədris proqramı

**Abituriyentlər istədikləri universiteti və proqramları apelyasiya nəticələrinin yayımlanmasının ikinci günü də daxil olmaqla seçə bilərlər.**

## EKSTERNAT İMTAHANLARININ VAXTI MƏLUM OLDU

Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi məktəblərdə eksternat imtahanlarının qeydiyyatı və keçirilmə vaxtlarını elan edib.

Nazirliyin yaydığı məlumata əsasən, eksternat imtahanlarının qeydiyyatı vaxtı avqustun 26-sından sentyabrın 2-nə kimi, imtahanların keçirilmə vaxtı isə sentyabrın 4-dən 13-nə kimidir.

## ŞAGİRDLƏR MƏKTƏBLƏRDƏ PEYVƏND EDİLƏCƏK



Yeni tədris ilindən tam və ya ümumiyyətlə peyvənd olunmamış şagirdlər məktəblərdə peyvənd ediləcək.

Yeniyetmələrin immunizasiyasının qayğısına Səhiyyə Nazirliyinin səfərbər ediləcək qrupları qalacaqlar. Mütəxəssislər tədris müəssisələrində monitorinq aparacaqlar və ehtiyac olduğu halda, valideynin razılığı ilə şagirdləri məktəbdə peyvənd edəcəklər.

"Sentyabrda məktəbə gedəcək kontingent araşdırılacaq ki, hansı immun statusa malik olduqlarını bilək. Əgər böyük miqdarda uşaq peyvəndsiz olarsa məktəbə briqadanın getməsi də mümkündür", - deyə Gürcüstanın Məcburi Köçkünlərin İşləri, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin nümayəndəsi Marina Daraxvelidze bildirib.

## MİLLİ TƏDRİS PLANINA HANSI DƏYİŞİKLİKLƏR DAXİL OLUB? – TƏHSİL NAZİRİNİN SƏRƏNCAMI

*Milli tədris planına dəyişikliklər daxil olub. Təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvilinin sərəncamına əsasən, milli tədris planında prioritet mövzulara "insan hüquqları" əlavə olunub. Həmçinin, dəyişikliklərə əsasən, Təhsil Nazirliyi ilə razılaşdırılaraq ictimai məktəblərə üç modelə uyğun olaraq saat cədvəlini təyin etməyə icazə verilir.*

**Milli tədris planında ayrılmış prioritet mövzular aşağıdakılardır:**

a) Mədəni irsin qorunması;
b) Ətraf mühitin mühafizəsi;
c) Sağlam həyat;
ç) Mülki təhlükəsizlik;
d) Konfliktlərin idarəsi;
e) Maliyyə biliyi;
ə) Mədəni rəngarənglik;
f) İnsan hüquqları.

**I model** – Milli tədris planı ilə müəyyən edilmiş həftəlik saat yüklənməsinə uyğun olan saat cədvəli.

**II model** – Milli tədris planında göstərilən fənlərin illik ümumi saatlarını nəzərə alan və semestr / il ərzində həftənin dərs yükünün məktəbin istəyi ilə paylandığı saat cədvəli; Əlavə olaraq:

1. Məktəb öz qərarını əsaslandırmalı və nazirliyə təqdim etməlidir.
2. Məktəb ikinci modeldən bir konkret sinifdə (bütün paralel siniflərdə deyil) minimum bir və maksimum bütün fənlər üzrə, bir semestr və ya bütün akademik il ərzində istifadə etmək səlahiyyətinə malikdir.

**III model** – Saat cədvəli ümumtəhsil müəssisəsinin özü tərəfindən hazırlanır və nazirlikdə məktəbin müəyyən etdiyi saat yükünün milli tədris planında göstərilən fənnin standart nəticələrinə nail olması üçün nə dərəcədə töhfə verəcəyini əsaslandırır.

## 2019-2020-Cİ TƏDRİS İLİNİN MAGİSTR QRANTLARI ÜÇÜN 2 MİLYON LARİDƏN ÇOX MƏBLƏĞ AYRILIB

Hökumətin sərəncamı ilə 2019-2020-ci tədris illəri üçün dövlət tədris magistr qrantının illik həcmi 2 250 000 lari müəyyən edilib. Bu haqda sənədi baş nazir Mamuka Baxtadze imzalayıb.

Sərəncama əsasən:

• Ali təhsil müəssisələrinin magistr pilləsi üçün hər hansı tədris proqramı istiqamətində və prioritet tədris proqramı istiqamətləri arasında bölünmüş qrantın illik həcmi 2 000 000 lari müəyyən edilib;
• Magistrantların sosial proqram çərçivəsində maliyyələşdirilməsi 205 000 lari müəyyən edilib;
• Magistrantların Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi tərəfindən müəyyən edilmiş dövlət proqramı çərçivəsində maliyyələşməsi 45 000 lari müəyyən edilib;
• 2019-2020-ci tədris ili üçün magistr qrantı ali təhsil müəssisələrinin magistratura tədris proqramının dəyəri qədər, ancaq 2 250 laridən artıq olmayaraq veriləcək.

**2019-2020-ci tədris ili üçün ali təhsil müəssisələrinin magistr pilləsində sonrakı tədris proqramı istiqamətləri müəyyən edilib:**

• Təbiətşünaslıq elmləri (fizikadan başqa)
• Səhiyyə;
• Humanitar;
• İncəsənət;
• Aqrar;
• Təhsil;
• Sosial elmlər (iqtisadiyyatdan başqa)
• Mühəndislik (informasiya texnologiyalarından başqa)
• Hüquq;
• Riyaziyyat və fizika
• İnformasiya texnologiyaları
• Biznes və iqtisadiyyat

**2019-2020-ci tədris ili üçün ayrılan ümumi məbləğin 60,04 faizi (1 200 800 lari) magistraturanın prioritet təhsil proqramı istiqamətlərinə aşağıdakı faiz bölgüsü ilə ayrılacaqdır:**

• Mühəndislik (informasiya texnologiyalarından başqa) - 9,57%;
• Təbiətşünaslıq elmləri (fizikadan başqa) - 9,07%;
• Sosial elmlər (iqtisadiyyatdan başqa) - 8,57%;
• Təhsil - 6,07%;
• Humanitar - 6,07%;
• İnformasiya texnologiyaları - 5,87%;
• Biznes və iqtisadiyyat - 5,07%;
• Hüquq - 3,07%;
• Riyaziyyat və fizika - 2,67%;
• Aqrar - 2,17%;
• Səhiyyə - 1,17%;
• İncəsənət - 0,67%.

## ALİ MƏKTƏBLƏRƏ QƏBUL OLAN AZƏRBAYCANLI ABİTURİYENTLƏRİN SAYI ARTIB

Gürcüstanın Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzinin məlumatına əsasən, bu il ali məktəblərə 880 azərbaycanlı abituriyent qəbul olub.

İllik müqayisədə milli azlıqlar üçün nəzərdə tutulan "1+4" proqramı üzrə universitetlərə qəbul olan azərbaycanlı gənclərin sayı 92 nəfər çoxdur. Belə ki, ötən il tələbə adını qazanan azərbaycanlı abituriyentlərin sayı 788 nəfər təşkil edib.

Ümumilikdə isə 28 740 abituriyent ali məktəblərə qəbul olub. Onların 6546-sı dövlət qrantı hesabına təhsil alacaq.

Qeyd edək ki, "1+4" proqramı xüsusi olaraq Gürcüstanda yaşayan milli azlıqlar üçün hazırlanıb. Proqrama əsasən, abituriyentlər Azərbaycan, erməni və osetin dillərində ümumi biliklərdən test imtahanı verirlər. Ali məktəbə qəbul olmuş tələbələr bir il ərzində gürcü dilini öyrənirlər və daha sonra istədikləri ixtisas üzrə bakalavr pilləsi üzrə təhsil almaq imkanı əldə edirlər. İlin sonunda 60 kredit balı toplaya bilən tələbələr imtahan vermədən istədikləri fakültədə təhsillərini davam etdirə bilirlər.

## MÜƏLLİM OLMAQ İSTƏYƏNLƏR İŞLƏ TƏMİN OLUNANA QƏDƏR HANSI PROSEDURLARDAN KEÇMƏLİDİRLƏR?

Təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvilinin sərəncamı ilə 2023-cü ilə qədər ən azı bakalavr və ya bakalavra bərabər dərəcəsi olan şəxslər müəllim ola bilərlər və onlardan milli tədris planına uyğun akademik dərəcə və milli tədris planına uyğun fənnin/fənn qrupunun akademik dərəcəsinə malik olmaq, həmçinin hərbi/idman üzrə peşəkar təhsil tələb olunmur.

Qeyd olunan şəxslər ümumtəhsil müəssisələrində işlə təmin olunana qədər tədris etmək istədikləri fənn üzrə imtahan vermək məcburiyyətindədirlər.

Müəllimlik axtaranlar 2018-2019-cu tədris ilinin başlanğıcına qədər ümumtəhsil müəssisəsində dərs deyən və müəllimlərin peşəkar inkişafı və karyerada irəliləmə sxeminə qoşulmayan şəxslər hesab olunur.

Həmin şəxslər elektron sistemdə qeydiyyatdan keçərək şəxsi göstəricilərini qeyd edirlər.

Mərkəz elektron sistemdə qeydiyyat olmuş müəllim istəyi olan şəxslərə tədris müəssisəsi tərəfindən elektron sistemdə yerləşdirilmiş müvafiq vakansiya/vakansiyalar haqqında elektron formada məlumat verir.

Müəllim olmaq istəyənlər ümumtəhsil müəssisəsində işlə təmin olunma və müəllim təhsili üçün müəyyən edilmiş müvafiq tələbləri qane etmək məqsədi ilə ümumtəhsil müəssisələrində işlə təmin olunduqdan 2 il müddətinə "Müəllimlik axtaran" proqramını keçməyə məcburdur.

Bu maddənin şərtləri yerinə yetirilmədiyi halda ümumtəhsil müəssisələrinin direktorları müəllim olmaq istəyənlə əmək müqaviləsi bağlamamalı və müvafiq məlumatı elektron sistemdə qeyd etməlidir.

"Müəllimlik axtaran" proqramı

• Bu proqram iki kursdan ibarətdir:

a) akademik kurs b) pedaqoji təcrübə kursu;

• Proqram uzunmüddətli və qısamüddətli ola bilər.

• Proqramın akademik kursu axtaran şəxs üçün nəzəri biliyin daha da möhkəmləndirilməsini, pedaqoji təcrübə kursu isə axtaran tərəfindən ümumtəhsil müəssisəsində pedaqoji təcrübə keçməyi nəzərdə tutur.

• Müəllimlik axtaran proqramın akademik kursunu elektron sistemdə məsafəli şəkildə keçəcək. Pedaqoji təcrübə kursu isə proqramın praktiki hissəsini nəzərdə tutur və ümumtəhsil müəssisəsində həyata keçirilir.

• Pedaqoji təcrübə kursu ərzində müəllim olmaq istəyənlərə fasilitator (bələdçi) tyutorluq (tutor) edir.

• Pedaqoji təcrübə kursu ərzində müəllim olmaq istəyən onun ehtiyaclarına əsaslanan plan təyin edir və müvafiq ümumtəhsil müəssisəsinin direktoru ilə razılaşır. Direktor fəaliyyət planını imzası və möhürü ilə (mövcud olduğu halda) təsdiq edir.

• Müəllimlik axtaran tərəfindən proqram o zaman uğurlu hesab olunur ki, müəllim olmaq istəyən şəxs akademik və ya pedaqoji təcrübə kursunda müsbət qiymətləndirilərək uğurlu hesab olunur.

• Proqramın akademik qiymətlədirməsini mərkəz, pedaqoji təcrübə kursunu isə ümumtəhsil müəssisəsi həyata keçirir.

## MÜƏLLİM OLMAQ İSTƏYƏNLƏR HARADA QEYDİYYAT OLUNMALIDIRLAR?

Statusu olmayan müəllim və müəllim olmaq istəyənlər üçün yeni proqram qüvvəyə minib. Proqramın əsas üstünlüyünü məktəbdə işlə təmin olunmaqla yanaşı müəllim hüququ qazanmaq təşkil edir. Bu haqda məlumatı Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi verib.

Məlumata görə, proqram həmçinin müəllimlik axtaranın peşəkar biliyinin inkişafının qayğısına qalır, müəllimin məktəb mühitinə adaptasiya olmasına dəstək olur.

Proqram məsafəli şəkildə həyata keçirilir və ümumtəhsil müəssisələrində çalışmaqla yanaşı, müəllim olmaq istəyənlər üçün proqrama qoşulanlar özləri proqramda 2 il müddətinə fəaliyyət planını qururlar.

**Proqram iştirakçıları bunlardır:**

• 2018-2019-cu tədris ilinin başlanğıcında ümumtəhsil məktəblərində dərs deyən, müəllimin peşəkar inkişafı və karyerada irəliləmə sxeminə qoşulmayan, müəllimliyə başlamaq, peşəkar inkişaf və karyerada irəliləmə sxemi ilə müəyyən edilmiş heç bir statusu olmayan şəxslər.

Proqramı uğurla başa vurduqdan sonra statusu olmayan müəllimlərə müəyyən edilmiş müddətdə status qazanmaq imkanı verilir. Onlar birillik müəllimliyə hazırlıq proqramını keçmədikləri halda avtomatik olaraq proqrama qoşulurlar.

• Bakalavr/magistr və ya ona bərabər akademik dərəcəsi olan, diplomu ilə milli təhsil planında nəzərə tutulmuş fənn/fənn qrupuna uyğun kvalifikasiyası təsdiqlənən və müəllim olmaq istəyi olan şəxslər.

Müəllim olmaq istəyənlər (əgər tələb qane edirsə) www.pedagogi.ge/ www.teacherjobs.ge veb-səhifələrində qeydiyyatdan keçməlidirlər və çalışmaq istədikləri məktəbi/məktəbləri seçərək qeyd etməlidirlər. Müsahibədən uğurla keçdikləri halda məktəb onlarla müqavilə bağlayacaq və işə başlayaraq fəaliyyətləri üçün əmək haqqı alacaqlar.

Çalışmaqla yanaşı axtaran şəxs akademik kurs da keçir. Akademik kurs məsafəli şəkildə keçirilir və kurs aparılan zaman axtaran müəllim aldığı tapşırıqları təcrübədə həyata keçirir. Təcrübə kursu ümumtəhsil müəssisəsində aparılır. Bunun üçün tyutor (dəstəkçi) olaraq təcrübəli müəllim ayrılacaq və axtaran müəllimə məktəbə adaptasiya olmaqda və praktiki tapşırıqları yerinə yetirməkdə kömək edəcək.

Axtaran müəllim üçün uzun və qısamüddətli/intensiv kurslar var. Axtaran müəllim onlardan birini seçə bilər. Uzunmüddətli kurs maksimum iki il, qısamüddətli/intensiv kurs isə 4 ay davam edir.

***Rubrikanı hazırladı:***
***Aynurə ƏLİYEVA***

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 31 AVQUST 2019-CU İL/ №016 (96)

# Yeni YOL

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## PREZİDENTİN XEYRİYYƏ FONDUNA NƏ QƏDƏR PUL TOPLANIB?



Prezident Salome Zurabişvilinin bu ilin fevral ayında rəsmi qeydiyyatdan keçirdiyi xeyriyyə fonduna 35 min 880 lari vəsait toplanıb. Bu barədə Gürcüstan ictimai televiziyası Prezident Administrasiyasına istinadla məlumat yayıb. Məlumatda bildirilir ki, fonda prezidentdən başqa heç kim – nə hüquqi və fiziki şəxslər, nə də beynəlxalq təşkilatlar pul köçürməyib.

Salome Zurabişvilinin yaratdığı xeyriyyə fondunun təqdimatı sentyabrın 17-də olacaq. Həmin gün fonda toplanmış vəsait Gürcüstan Uşaq Onkoloji Mərkəzinə təqdim ediləcək.

Bundan başqa, prezidentin təşəbbüsü və fondun dəstəyi ilə mayın 29-da "Anastasiya" adlı qadın sosial reabilitasiya mərkəzi açılıb. Mərkəz fiziki zorakılığa, təqiblərə məruz qalmış qadınların müdafiəsi, təhsil almaları və işlə təmin olunmalarına yardım məqsədilə yaradılıb.

Xatırladaq ki, Gürcüstanda prezidentin ehtiyat fondu var idi. Fond xüsusi qabiliyyətli tələbələrə, insan hüquqlarının müdafiəsinə, demokratik təsisatların gücləndirilməsinə və bu qəbildən olan bəzi tədbirlərin maliyyələşdirilməsinə vəsait ayırırdı. 2018-ci ilin dekabrında S.Zurabişvilinin andiçmə mərasimindən sonra fond ləğv edildi. Bundan sonra prezident özü xeyriyyə fondu yaratdı.

Qeyd edək ki, Gürcüstan prezidentinin aylıq vəzifə maaşı 5520 laridir.

## GÜRCÜSTANA ƏN ÇOX İNVESTİSİYA AZƏRBAYCANDAN DAXİL OLUB

2018-ci ildə Gürcüstana ən çox investisiya Azərbaycandan daxil olub. Ümumi investisiyada Azərbaycanın töhfəsi 19,5% təşkil edib.

Milli Statistika Xidmətinin məlumatına görə, ikinci yerdə 16,5 faizlə Niderland, üçüncü yerdə isə 14,1 faizlə Birləşmiş Krallıq durur. Ümumilikdə üç böyük investor ölkənin birbaşa xarici investisiyaların ümumi həcmində töhfəsi 2018-ci ilin qeyri-dəqiq göstəriciləri ilə 50,1 faiz təşkil edib. Beşliyə 102.6 milyon dollarla Amerika və 75.7 milyon dollarla Çin daxildir.

ცხრილი №4. ძირითადი პირდაპირი ინვესტორი ქვეყნები საქართველოში 2018 წლის მიხედვით (მლნ. აშშ დოლარი)

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|
| **სულ** | **1 039.2** | **1 837.0** | **1 729.1** | **1 650.3** | **1 962.6** | **1 265.2** |
| მათ შორის: | | | | | | |
| აზერბაიჯანი | 84.6 | 340.5 | 581.7 | 555.1 | 462.0 | 246.4 |
| ნიდერლანდი | 159.2 | 420.5 | 164.9 | 77.3 | 354.5 | 208.4 |
| გაერთიანებული სამეფო | 55.2 | 108.9 | 398.8 | 85.2 | 247.5 | 178.8 |
| აშშ | 53.9 | 184.4 | 18.9 | 59.3 | 79.3 | 102.6 |
| ჩინეთი | 101.1 | 220.1 | 66.9 | 25.5 | 19.4 | 75.7 |
| ჩეხეთი | 43.6 | 52.0 | 16.7 | 87.5 | 129.1 | 75.0 |
| პანამა | 25.8 | 70.7 | 9.5 | 75.9 | 23.8 | 74.6 |
| რუსეთი | 7.8 | 87.9 | 52.4 | 28.4 | 51.3 | 69.7 |
| ლუქსემბურგი | 91.7 | 109.6 | 127.3 | 115.7 | 100.7 | 50.1 |
| თურქეთი | 51.4 | 72.3 | 74.9 | 220.7 | 256.1 | 49.6 |
| დანარჩენი ქვეყნები | 364.9 | 170.1 | 217.1 | 319.7 | 238.9 | 134.3 |

2018-ci ilin üç böyük sektorun töhfəsi (həyata keçirilən birbaşa xarici investisiyalara əsasən) 48,0 faiz təşkil edib. Ən çox birbaşa investisiya maliyyə sektorunda həyata keçirilib və 270.7 milyon ABŞ dolları təşkil edib. Bu isə birbaşa xarici investisiyaların ümumi həcminin 21,4 faizidir. İkinci yerdə 173.0 milyon ABŞ dolları ilə tikinti sektoru, üçüncü yerdə isə 163.0 milyon ABŞ dolları ilə nəqliyyat və kommunikasiya sektorudur.

## GÜRCÜSTANDAN MEDİKAMENTLƏRİN İXRACI 54,8% ARTIB

Cari ilin yanvar-iyul ayında Gürcüstandan dərman preparatlarının ixracı 44 264.7 min dollar, yəni 54,8% artıb. Bu haqda məlumatı Statistika Xidməti yayımlayıb.

Məlumata görə, cari ilin ilk yeddi ayı ərzində medikamentlərin ixracı 125 028.9 min dollar təşkil edib. Ötən ilin analoji dövründə isə bu göstərici 80 764.2 min dollar təşkil edib.

Qeyd edək ki, cari ilin yanvar-iyul aylarında dərman preparatları ən böyük ixrac məhsul qruplarının onluğunda 4-cü yeri tutub və onun ümumi ixracdakı payı 5,9% təşkil edib.



## GÜRCÜSTANDA İRİ VƏ XIRDABUYNUZLU MAL-QARANIN SAYI AZALIB



Gürcüstanda iri və xırdabuynuzlu mal-qaranın sayında azalma müşahidə olunur. Bu barədə Gürcüstan Milli Statistika Xidməti məlumat yayıb.

Məlumatda deyilir ki, 2019-cu ilin ikinci rübündə ölkədə iri və xırdabuynuzlu mal-qaranın sayında azalma müşahidə olunub. Hazırda Gürcüstanda 965 min baş iribuynuzlu mal-qara qeydiyyatdadır. Bu, 2018-ci ilin eyni dövrü ilə müqayisədə 1,4 faiz azdır.

Azalma xırdabuynuzlu mal-qaranın sayında da müşahidə olunub. Belə ki, hesabat dövründə ölkədə 1 milyon baş xırdabuynuzlu heyvan var. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,9 faiz azdır.

Bəzi ekspertlərin fikrincə, ölkədə heyvandarlığın zəif inkişaf etməsi, iri və xırdabuynuzlu mal-qaranın sayının azalması iqtisadi problemlərə gətirib çıxaracaq.

Bu cür azalma ölkədə ət və ət məhsullarının qiymətinin artmasına səbəb olacaq.

## DÖVLƏT MÜƏSSİSƏLƏRİNƏ NEÇƏ AVTOMOBİL XİDMƏT GÖSTƏRİR?



Dövlət büdcəsi monitorinqinin veb-səhifəsində yayımlanan məlumata əsasən, müəssisələr arasında ən çox avtomobil Regional İnkişaf və İnfrastruktur Nazirliyinə xidmət göstərir. Müəssisənin balansında 104 avtomobil var.

Avtomobillər haqqında 6 nazirlik məlumatı ictimai şəkildə yayımlamayıb. Söhbət Maliyyə, Xarici İşlər, Müdafiə, Daxili İşlər və Kənd Təsərrüfatı nazirliklərindən gedir.

Digər müəssisələrin balansında olan avtomobillərin sayı isə belədir:

• Gürcüstan parlamenti və parlamentdə olan təşkilatlar – 88 avtomobil;
• Prezident Administrasiyası – 9 avtomobil;
• Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Naziri Aparatı – 9 avtomobil;
• Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi – 55 avtomobil;
• Regional İnkişaf və İnfrastruktur Nazirliyi – 104 avtomobil;
• Ədliyyə Nazirliyi – 87 avtomobil;
• Gürcüstanın Məcburi Köçkünlərin İşləri, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi – 49 avtomobil.

## GÜRCÜSTAN MİLLİ BANKI ÜÇÜN YENİ BİNA TİKİLƏCƏK



Gürcüstan Milli Bankı üçün Tbilisidə yeni baş ofis inşa olunacaq. Bu barədə Gürcüstanın Dövlət Satınalmaları Agentliyindən bildirilib.

Bankın yeni binasının tikintisi üçün büdcə 50 milyon lari təşkil edir. Ofis üçün A klass binanın sahəsinin, təxminən, 17 min kv. metr olacağı nəzərdə tutulub.

Binanın inşası üçün müddət 30-36 ay, layihələndirmə üçün isə 6 ay müəyyən olunub. Baş ofisin inşası ilə bağlı təkliflərin qəbulu 2019-cu ilin avqustun 16-da başa çatıb.

Qeyd edək ki, Gürcüstan Milli Bankının ayrıca binası yoxdur. Bank 2012-ci ilin dekabrından etibarən Tbilisidə Ədliyyə Evində yerləşir. Bu vaxta qədər isə bank və bölmələri köhnə və qəzalı binalarda fəaliyyət göstərib.

Təsisçi: "Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım Direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevar ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.